# ARZUNA ÇATDINMI, ŞƏHİD QARDAŞIM?!



Pəncəli Nurməmməd oğlu Teymurov 1981-ci ildə Astara rayonunun Asxanəkəran inzibati ərazi dairəsinin Əzərud kəndində dünyaya göz açmışdır. On altı il idi ki, Milli Ordumuzda xidmət edirdi. Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqların yerinə yetirilməsində göstərdiyi şücaətlərə görə Azərbaycan Prezidentinin 24 iyun 2015-ci il tarixli sərəncamı ilə "İgidliyə görə" medalına və Müdafiə Nazirliyi tərəfindən Fəxri fərman və bir sıra təltiflərə layiq görülmüşdür.

2013-cü ilin avqustunda toyunda demişdi ki, torpaqlarımızın azad edilməsi yolunda şəhid olub üçrəngli bayrağımıza bükülərək dəfn edilməsini özünə ən böyük arzu, şərəf bilir. Cəsur gizir 2016-cı il aprel ayının 3-də Lələtəpə yüksəkliyinin alınmasında igidlik, şücaət göstərərək qəhrəmancasına həlak olmuş və şəhidlik zirvəsinə yüksəlmişdir. Bu şeiri şəhid qardaşımızın əziz xatirəsinə həsr edirəm.

Toyunda arzunu dilə gətirdin,
Ucalan bayrağı ələ gətirdin,
Sən göz yaşlarımı selə gətirdin,
Arzuna çatdınmı, şəhid qardaşım?!

Dünyaya gələndə, atanla anan
Adını Pəncəli qoydular sənin.
Vermədin namərdə bir anlıq aman,
Aslan pəncəliydi güclü əllərin.

Soyuq silahını isti köksünə,
Sıxdın balan kimi, qırdın düşməni.
Dedin daha bəsdir, bunca il yetər,
Rədd olsun yurdumdan mənfur erməni.

Dedin körpələrin qisasın alım,
Gecələr rahatca yata bilmədin.
Ancaq öz ananı balasız qoydun,
Özün bala dadın dada bilmədin...

Susadın, su yoxdu yanında sənin,
Öz zəhmət tərini içdin, qardaşım.
Torpağınçün haqqa uzandı əlin,
Daim qeyrət dəmin seçdin, qardaşım.

Vuruşdun son damla qanına kimi,
Ki, ana baladan aralanmasın.
Əlini Vətənin boynuna saldın,
Dedin, qoy ürəyi yaralanmasın!

Bu necə arzuydu, bu necə istək,
Belə söyləmişdin sən öz toyunda.
"Müqəddəs üçrəngli bayrağa büküb
Dəfn edəsiz məni Vətən yolunda..."

Şəhidlik zirvəsi ən böyük arzun,
Çatdınmı arzuna, şəhid qardaşım?!
Ay doğma yurd üçün canından keçən,
Yaralı yurduma şahid qardaşım.

Torpaq öz yaralı qəlbinə sıxdı,
Ona fəda olub sönən qəlbini.
Yarın qara geyib yollara baxdı,
Bulaqlar ağladı sənin dərdini.

Anacan demə ki, "şəhid balamın
Bala yadigarı, heyif, qalmadı".
Ona Vətənimin hər bir övladı,
Yas tutub, qürurla matəm saxladı.

Cənnət qapısından girdin, qardaşım,
Ruhun bu Vətənin göylərindədir.
Ay ata, axtarma balanı daha
O, bütün bu xalqın ürəyindədir.

Arzusu çin olan şəhid qardaşım,
Qisas yerdə qalmaz, qan yerdə qalmaz.
Yaralı yurduma şahid qardaşım,
Gələcək nəsillər səni unutmaz...

**Günel Rasibqızı**